# Parisin bitməyən qərəzi

## Ermənipərəst Fransa bölgədə yeni münaqişə ocağı yaratmaq niyyətindən əl çəkmir

**Bakının Fransanı siyasi, diplomatik cəbhədə məğlubiyyətlərə uğratması, təcavüzkar Ermənistan üzərindən Cənubi Qafqaza yerləşmək kimi çirkin planlarını pozması Yelisey sarayını tamamilə sarsıdıb. Buna görə də sözün həqiqi mənasında başını itirən Makron hökuməti ardıcıl səhv qərarlar verir, yanlış addımlar atır.**

Elə fevralın 21-də Prezident Emmanuel Makronun Parisdə Ermənistanın baş naziri ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar da Fransa Prezidentinin adına yazılan növbəti gülüşdoğuran yanlışı oldu.

### Qərəzli yanaşmalara son qoyulmalıdır

Azərbaycan suverenliyini tam bərpa etdikdən sonra Qarabağda yaşayan erməniəsilli sakinlər könüllü şəkildə ölkəmizi tərk etdilər. Hətta onlar özləri də beynəlxalq KİV nümayəndələrinə müsahibələrində ölkəni tərk etmək üçün heç bir zorakılığa məruz qalmadıqlarını, öz xoşları ilə Ermənistana yollandıqlarını, qayıtmaq niyyətində olmadıqlarını açıqca etiraf etdilər.

Eyni zamanda Ermənistan da həmin insanların qayıdışı ilə bağlı məsələlər barədə danışmır və ya danışmaq istəmir. Çünki təcavüzkar ölkə yaxşı bilir ki, qayıdış qarşılıqlı şəkildə olmalıdır və vaxtilə Ermənistandan qaçqın düşən 200 mindən çox azərbaycanlının da hüquqları bərpa edilməli, onlar da tarixi ərazilərinə, dədə-baba torpaqlarına qayıtmalıdırlar. Ancaq İrəvan bunu həyata keçirməkdən boyun qaçırır...

Bir sözlə, nə erməniəsilli sakinlər, nə də Ermənistan hökuməti qayıdış barədə düşünür, ümumiyyətlə, belə bir problem mövcud deyil.

Lakin azərbaycanlıların hüquqlarını heçə sayan Fransa Cənubi Qafqaza soxulmaq üçün olmayan problemləri qaldırır, Azərbaycana qarşı yalan və böhtanlarla dolu iddilar səsləndirmək üçün əlinə keçən bütün fürsətlərdən istifadə etməyə çalışır.

Sözügedən tarixdə E.Makronun Parisdə Ermənistan baş naziri ilə birgə mətbuat konfransı zamanı ölkəmizə qarşı səsləndirdiyi və Ermənistanı birtərəfli qaydada müdafiə edən əsassız iddialarını qətiyyətlə pisləyən Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı bəyanatında bildirib ki, Fransanın öz istəkləri və heç bir zorakılıq tətbiq olunmadan Azərbaycan ərazilərini tərk etmiş ermənilərin hüquq və təhlükəsizliyindən danışması tamamilə yersizdir: "Heç bir təhrikedici amil olmadan 5 aya yaxın davam edən sabitliyi pozan Ermənistanın tənqid edilməsi əvəzinə Azərbaycanın qeyri-proporsional cavab tədbiri görməkdə təqsirləndirilməsi qəbuledilməzdir və bu kimi qərəzli yanaşmalara son qoyulmalıdır".

### Fransanın Cənubi Qafqaz planı suya düşdü

Faktdır ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı dövrdə Fransa erməni lobbisinə yalan vədlər verməklə onlardan xeyli pul qoparıb, eyni zamanda ərazilərimizdə sərvətlərimizin qanunsuz istismarı, talanı ilə məşğul olub. Məhz buna görə də onilliklər ərzində vasitəçilik statusundan danışıqların sonsuzadək sürməsi üçün istifadə edib. 25 il müddətində münaqişənin danışıqlar yolu ilə həll olunması istiqamətində heç bir əməli addım atmayıb.

44 günlük müharibədə Azərbaycanın zəfər qazanması bölgədə yeni reallıqlar yaratdı. Bununla müstəmləkəçi Fransanın da məkrli planları alt-üst edildi, rahatlığına haram qatıldı. Artıq regiona yerləşməyin başqa yolla mümkün olmadığını görən Paris bu dəfə Azərbaycan-Ermənistan arasında normallaşmada tərəf kimi iştirak etmək iddiasına düşdü. Ancaq yenə də çirkin niyyətini çox ört-basdır edə bilmədi. Azərbaycana qarşı BMT TŞ-də qətnamə qəbul olunmasına cəhd göstərdi, rəsmi səviyyədə ölkəmizlə bağlı yalan və uydurmalarla dolu ittihamlar irəli sürdü, təcavüzkar Ermənistana siyasi, hərbi dəstək vermək istədi. Ancaq Bakının qətiyyətli siyasi iradəsi ilə qərəzli Fransa yerində otuzduruldu və danışıqlar prosesindən birdəfəlik uzaqlaşdırıldı. 2023-cü ildə Azərbaycanın suverenliyini tam təmin etməsi ilə Fransanın Cənubi Qafqaz planları da suya düşdü.



### Bu çirkin siyasət iflasa məhkumdur

Azərbaycan bütün beynəlxalq tribunalarda Fransanın XXI əsrdə də yürütdüyü neokoloniolist siyasətini ifşa edir. Ölkəmizin uğurlu sədrliyi dövründə Qoşulmama Hərəkatı neokolonializmə qarşı çıxan əsas beynəlxalq platformalardan birinə çevrilib.

Bu gün də ölkələri, xalqları əsarəti altında saxlamağa, yeni müstəmləkələr əldə etməyə çalışan Fransanın iç üzü bütün dünyaya göstərilir. Bakının neokolonializmə qarşı başlatdığı uğurlu beynəlxalq hərəkat sayəsində illərdir Fransanın zülmü altında əzilən xalqlar artıq etiraz səslərini ucaldır, azadlıq, müstəqillik istəyirlər.

Bakının Parisin casus şəbəkəsini ifşa etməsi isə Fransanın dünyadakı nüfuzunu tamamilə yerə vurdu. Bütün bu qanunsuz, beynəlxalq hüquqazidd fəaliyyətlərinin gün üzünə çıxarılması Fransanı daha da qəzəbləndirdi. Yelisey sarayı bəzi qərəzli Qərb ölkə və qurumlarını da təşkilatlandıraraq Azərbaycana qarşı "səlib yürüşü"nə çıxdı.

Fevralın 21-də Parisdə keçirilən brifinqdə Makronun Paşinyana "Fransa Ermənistanla müdafiə sahəsində əməkdaşlığı inkişaf etdirməyə davam edəcək. Fransa Ermənistana müdafiə silahlarının tədarükünə razılıq verib" deməsi isə Fransanın ölkəmizə qarşı həm də hərbi təxribatlarını əyani açıb göstərir. Bu həm də ortaya qoyur ki, Fransa qətiyyən Cənubi Qafqazda sülh istəmir. Əksinə, Ermənistanı silahlandırmaqla müharibə fitilini alovlandırır.

Ancaq Qərbin bu müstəmləkəçi ölkəsinin bölgədə gərginlik yaratmaq, sülhə mane olmaq kimi çirkin siyasəti iflasa məhkumdur. Çünki Azərbaycan indiyə qədər olduğu kimi, bundan sonra da milli maraqlarına təhdid olan bütün gücləri yerlərinə otuzdurmaq iqtidarındadır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.8.